# ZƏHMƏTƏ BAĞLI ÖMÜR



**Maşınımız füsünkar gözəlliyi ilə qəlbləri riqqətə gətirən qədim Şirvan torpağının əsrarəngiz məkanı Göyçaya yaxınlaşdıqca istər-istəməz yadıma bu diyara həsr olunmuş bir mahnı düşür:**

***Şirvanın gözüdür bu gözəl məkan,***
***Suyu şəfalıdır, havası dərman,***
***Baxsan baxça-bağdır bu yerdə hər yan,***
***Yaşıldır çinarları, dadlıdır şirin narı,***
***Çox sevir dostu yarı, yaraşıqlı Göyçayım!***

Uca çinarlarının və min bir dərdin dərmanı narının şöhrəti ilə dillərdə dastan olan Göyçayın gündən-günə abadlaşan küçələrindən keçərək şəhərin mərkəzinə doğru irəlilədikcə insan əllərinin qüdrətindən yaranan bu cah-calala biganə qalmaq olmur.

Sanki, sürücü də mənim heyranlıqla tamaşa etiyimi duyaraq qəsdən maşını şəhərin ən görməli yerlərindən sürürdü. Şəhərin mərkəzində yerləşən R.Rza adına rayon mədəniyyət evinin qarşısına necə çatdığımı hiss etmədim.

Sürücü qarşısında dayandığımız möhtəşəm binanı göstərərək:

- Hə, bu da mədəniyyət evi - dedi.

Maşından düşüb pillələrlə yuxarı qalxıram. Qarşıma çıxan Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sahib Şükürov məni gülərüzlə qarşılayaraq öz otağına dəvət edir. İkinci mərtəbədən gələn musiqi sədalarını heyranlıqla dinlədiyimi görən Sahib müəllim gülümsünür:

- Nəriman müəllimdir, sabahkı tədbirin yekun məşqlərini aparır...

Beləcə fürsətdən istifadə edib sabahkı tədbirin son məşqlərinə tamaşa etdik. Doğrusu, bu cür gözləmirdim. Rayonda bir belə istedadlı gənclərin olduğunu və onların yaradıcılığından belə məharətlə istifadə edildiyini görəndə çox sevindim. Deməli, istedadlı, bacaraqlı və işgüzar mütəxəssis olan yerdə layiqli iş də var. Məşqarası Nəriman müəllimlə bir az söhbətləşdikdən sonra xudafisləşib bayıra çıxdıq.

Biz Sahib muəllimlə yenicə təmirdən çıxan mədəniyyət evinin otaqlarını gəzdikcə, Sahib müəllim rayonun mədəniyyət sahəsindəki uğurlarından və bu uğurların qazanılmasında Mədəniyyət və Turizm Şöbəsinin aparıcı mütəxəsisi Nəriman Məlikovun xidmətlərindən söz açaraq bildirdi ki, rayonda keçirilən əksər kütləvi tədbirlərin hazırlanması və keçirilməsində onun əməyi böyükdür. O, həm ssenari müəllifi, həm rejissor, həm aktyor, həm də tədbirlərin əksəriyyətinin aparıcısı olur.

Bir azdan mən Nəriman müəllim haqqında bunları öyrənə bildim. Nəriman Əlisahib oğlu Məlikov 1964-cü il yanvarın 8-də Göyçay rayonunun Qarabağlar kəndində anadan olub. 1981-ci ildə Qarabağlar kənd orta məktəbinin 10-cu sinfini fərqlənmə ilə bitirib.

1981-83-cü illərdə Bakı Mədəni-maarif Texnikomunun "Dram aktyoru şöbəsini" fərqlənmə diplomu ilə bitirərək təyinatla Göyçay rayon mədəniyyət evinə göndərilib.

1986-cı ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmuş və 1990-cı ildə mədəni-maarif fakültəsini fərqlənmə diplomu ilə bitirib və təyinatını Göyçay rayon Mədəniyyət şöbəsinə almışdır...

1990-cı ildən Göyçay rayon R.Rza adına Mədəniyyət evində xalq teatrının rejissoru, baş metodist, 1995-ci ilin dekabrından bu günə qədər Göyçay Rayon Mədəniyyət və Turizm Şöbəsinin aparıcı mütəxəssisi vəzifəsində çalışır.

N.Məlikov 1985-ci ildə "Ümumittifaq festivalı laureatı" adına layiq görülüb.

N.Məlikov rayonun bütün ictimai işlərində yaxından iştirak edir. O həm də qələm əhlidir. Vaxtaşırı mətbuatda məqalələri dərc olunur.

**Göyçay**

● **Aydın QULİYEV**